# İDEYASI XALQI MÜTƏŞƏKKİL VƏ MÜZƏFFƏR EDƏN LİDER

***Müstəqilliyimizdən tam bəhrələnməyə, onu bütün çalarları ilə hiss etməyə, normal siyasi, iqtisadi, maddi-mənəvi inkişafımıza birbaşa və dolayısı ilə mane olan Qarabağ münaqişəsi artıq tarixdir. Tarixə düşən, tarixləşən hadisələr isə bəllidir ki, sonsuz və məhdudsuz deyil. Həmin hadisələrdən bütün təfərrüatı, mahiyyət zənginliyi ilə məhz indiki və gələcək nəsillər üçün mühüm əhəmiyyət kəsb edən bəşər tarixində həqiqətən iz qoymuş ən önəmlilər tarixə düşür, salnaməyə çevrilir. Hər bir dövlətin, xalqın, hətta hər bir insanın həyatı belə müxtəlif hadisələrlə zəngindir. Tarixin predmeti konkret olduğundan hadisələr spektrindən də bəşəri miqyaslı hadisələri, necə deyərlər, konkret rəngləri seçib öyrənir. Məsələn, sivilizasiyaların, müxtəlif elm sahələrinin tarixi və ya sadəcə ümumi tarix. Hamıya məlumdur ki, tarix yazanlar əsasən dövlətlərin tarixini dövlətlərarası münasibətləri öyrənməklə müharibələrə üstünlük verirlər. Dövlətçilik və dövlətçilik ənənələri isə daha çox sosial-mənəvi proseslərlə, onların arasındakı varislik əlaqələri ilə bağlı olduğundan tarixin predmetindən kənarda qalmaqla, fəlsəfənin predmetinə yaxın olur.***



## Tarixi şüurumuzun və dövlətçilik ənənələrinin qovuşması

Tarixin kəsilməz və ya fasiləsiz olması sivilizasiyanın ən mühüm şərtlərindəndir. Formal olaraq baş verən hadisələri xronoloji ardıcıllıqla təsbit edən tarixdə bəzən təsvir olunan hadisələrin real daxili əlaqəsi olmaya da bilir. Lakin sonrakı proseslərə təsir etməklə onların əsasında dayanan hadisələr real ictimai inkişaf prosesinin strukturuna daxil olur.

Tarixdə belə halları əksər ölkələrin timsalında görmək olur. Adətən böyük imperiyaların kiçik ölkələri müstəmləkəyə çevirib, öz iradəsinə tabe etdirdiyi zaman tarixdə kəsilmələr-fasilələr baş verir. Buna isə əsasən müharibələr və inqilablar səbəb olur. Nəticədə yaranan kəsilmə müddəti və ya fasilə kiçik olduqda, konkret desək, ölkəni inkişaf yolundan ayırmaq mümkün olmadıqda tarixi yaddaş və dövlətçilik ənənələri tamamilə itmir. Fasilənin kiçik olması adətən bir insan ömrü ilə müqayisədə ölçülür, yəni nəsil dəyişməsinin baş verməməsi əsas götürülür. Belə olduqda ölkənin əvvəlki ictimai inkişaf yoluna dönüşü asan, əks halda isə dövlətçilik şüuru, təfəkkürü və duyğusu tədricən zəiflədiyindən qayıdış prosesi, özünüdərk və dövlətçilik şüurunun bərpası daha çətin, ağrılı, təbəddülatlarla dolu olmaqla ləng gedir, fəlakətlər törədir.

Tarixə müraciət edək: İkinci Dünya müharibəsi nəticəsində Şərqi Avropa ölkələrinin bir qismi, Baltikyanı ölkələr özlərinin ənənəvi ictimai inkişaf yolundan zorən ayrılsalar da, tarixən qısa müddət sonra - ötən əsrin 90-cı illərində əvvəlki dövlətçilik ənənələrinin bərpası nisbətən asan oldu. Mərkəzi Asiya və Cənubi Qafqaz respublikalarının milli dövlətçilik ənənələrini yaşadan inkişaf yoluna qayıdışı isə müddət çox olduğundan ağrı və fəlakətlərlə müşayiət olundu.

Azərbaycanda da həmin dövrlərdə tarixən qərarlaşmış və əsasən şüurlarda yaşayan dövlətçilik ənənələrinin maddi təcəssümünü tapması, yenidən bərpası zərurəti yarandı. Qarşıda iki çox mühüm vəzifə dururdu: birincisi, digər respublikalarda olduğu kimi, ölkəmizdə də müstəqil dövlət quruculuğu prosesi uğurla davam etdirilməli, ikincisi, tarixi şüurumuzun və dövlətçilik ənənələrinin müasir tariximizdə qovuşdurulması idi. Azərbaycanda dövlət quruculuğu ilə yanaşı, şifahi xalq ədəbiyyatında və şüurlarda yaşayan dövlətçilik ənənələrinin inkişafı bütövlükdə dövlətçilik tarixinin kəsilməzliyinə-fasiləsizliyinə xidmət etdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ-dən ayrılaraq müstəqil dövlət qurmaq şansı qazanan ölkəmizdə etnik-milli hisslərin sürətli inkişafı elə dramatik vəziyyət yaratmışdı ki, optimal həll yolu tapmaq müşkülə dönmüşdü. Lakin müdrik xalqımız seçimi ilə xaotik hadisələrin istiqamətini idarəolunan məcraya yönəldə biləcək siyasi lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi. O dövrdə cəmiyyətdəki və şüurlardakı inkişaf meyillərini vaxtında və düzgün qiymətləndirmək, balansı tarazlaşdırmaq üçün prosesləri qabaqcadan dərk etmək mütləq idi. Məhz Ulu Öndərin siyasi təcrübəsi intuitiv optimal istiqamət seçməyə qadir olması ilə kortəbii proseslərin inkişafının qarşısı alındı.

## İnqilablar vasitəsilə islahat deyil, islahatlar vasitəsilə inqilab

Güclü, möhkəm və stabil dövlətin yaradılması müstəqilliyin əsas şərtlərindən olsa da, görkəmli siyasətçi Heydər Əliyevin təkcə özünün hakimiyyətdə olması siyasi müstəvidə ermənilərin və onların himayədarlarının üstünlük qazanmasına imkan vermirdi. Böyük dövlətləri kor-koranə ermənipərəstlikdən yayındıraraq, iqtisadi maraqlar müstəvisinə dəvət etməklə regionun coğrafi-siyasi xəritəsində iqtisadi maraqların intensivliyini artıran Ulu Öndər Azərbaycanı vətəndaş müharibəsindən xilas etməklə müharibə və inqilabla növbəti tarixi kəsilmənin qarşısını aldı. İnqilablar vasitəsilə islahat deyil, islahatlar vasitəsilə inqilab yaratmağın tərəfdarı olan dahi şəxsiyyət Heydər Əliyev deyirdi: *"İnqilabi dəyişikliklər adətən köhnə sistemi vurub dağıdır, amma ondan çox fərqli olan bir sistem yaratmaq üçün buna vaxt lazımdır, illər lazımdır".*

İnqilabi dəyişikliklərin köhnə sistemi dərhal yeni sistemlə əvəz etmədiyini, bu proseslərin ancaq təkamül yolu ilə həyata keçirilməsi üçün optimal inkişaf yolunu və tempini düzgün yəqin edən, siyasi intuisiyaya malik tarixi şəxsiyyət dövlətçilik təfəkkürünün formalaşmasında mühüm addımlar atdı, vahid strateji planı ayrı-ayrı detalları ilə reallaşdırdı. Cəmiyyət üzvlərinin ictimai şüuru ictimai varlıqda gedən sürətli dəyişikliklərə tam deyil, qismən də olsa, uyğunlaşmadan dövlətin təməllərinin möhkəmləndirilməsinin qeyri-mümkünlüyünü qeyd edən Ümummilli Lider demokratiyanı həm inkişafın vasitəsi, həm də nəticəsi hesab edirdi. Amma heç vaxt bu özlüyündə məqsədə çevrilməməlidir deyirdi. Demokratiya kiməsə nümayiş etdirilmək üçün qəbul edilmədiyindən tədricən formalaşmalı və özününküləşdirilməli idi. Bu barədə Ulu Öndər demişdir: *"Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik heç bir inqilabla olmur, təkamül yolu ilə tədricən gedir".*

Tarixi şəxsiyyət Heydər Əliyevin – demokratiyanın inkişafı ictimai şüurla həmahəng olmalıdır – konsepsiyası beynəlxalq arenada da xüsusi önəm kəsb etməklə dəyərləndirilirdi. Görkəmli yazıçı Ç.Aytmatovun fikirləri bu baxımdan daha təqdirəlayiqdir: *"Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir".*

Ümummilli lider Heydər Əliyev fenomeninin təkrarsızlığı, proqnozlaşdırıla bilməyən məntiqi, şəxsiyyətindəki sehr, mövqe qətiyyəti və intuitiv idrak gücü böyük elmi konseptual sistemin yaradılmasına xidmət etdi. Belə ki, ictimai islahatlar, sosial-iqtisadi quruculuq işləri sayəsində güclü dövlət yaradıldı, sosial-iqtisadi təminat və mənəvi mütəşəkkillik əldə edildi.

Dövlət təhlükəsizlik sisteminin əsas istiqamətlərindən olan, ölkənin dövlət müstəqilliyini və suverenliyini təsdiq edən milli ordunun, silahlı qüvvələrin yaradılmasının fundamental əsasları formalaşdırıldı. Bütün bunlar Azərbaycanın həmin illərdə ən böyük probleminin gələcək həllinə və hərbi nailiyyətlərə zəmin yaratdı.

## Dövlət başçısının öncüllüyü üçün əsas meyar

Tarixin müxtəlif dönəmlərində fərqli ölkələrdə dövlət başçılarının üstünlük meyarları da müxtəlif olmaqla dəyişib. Bu meyarlar böyük sərkərdə, komandan, ideoloji lider, qurucu və yaradıcı dövlət adamı kimi kriteriyaları ehtiva edir. Bütün meyarlar üzrə öncül yer tutan dövlət başçılarına çox nadir hallarda rast gəlinir. Demək olar ki, təxminən XXI əsrə qədər dövlət başçılarının üstünlüyü döyüş meydanlarındakı yüksək sərkərdəlik və praktik komandanlıq məharəti ilə ölçülürdü. Ötən əsrdə baş verən İkinci Dünya müharibəsindən sonra üstünlük bu meyar və qaydalara deyil, ideoloji liderliyə, qurucu və yaradıcı dövlət adamlarına verilsə də, bugünkü dünya əsaslı şəkildə dəyişib və müəyyən edilmiş qaydalar artıq işləmir, yenidən güc amili öndədir. Belə halda hər hansı ölkənin tam təhlükəsizliyi mümkün deyil. Yenə də ölkənin milli təhlükəsizliyi, mühafizəsinin qarantı olan ordu, silahlı qüvvələr əsas faktora çevrilir. Deməli, yenə də sərkərdəlik məharəti dövlət başçısının üstünlüyü-öncüllüyü üçün əsas meyara çevrilir.

Azərbaycanda dövlət böhranı son həddə çatanda, dövlətsizlik şəraiti yarananda ali hakimiyyətə dəvət olunaraq hər şeyi sıfırdan başlayan dahi siyasətçi Heydər Əliyev müasir və müstəqil Azərbaycan dövlətinin yaradıcısı olmaqla, sonrakı inkişaf istiqamətlərinin də ideya müəllifidir. İnsan daha böyük müddətli hadisələrə - dövlət quruculuğu, geopolitik strategiyalar, ümummilli amallar, ümumbəşəri ideallar kimi proseslərə qatılaraq öz həyatını bəşəri miqyaslı ictimai proseslərin tərkibində yaşada bilər. Bu, artıq bir ömrə sığmayan ideyaların ictimai prosesə çevrilərək və davamçıları tərəfindən yaşadılaraq ideya müəlliflərinə sosial-mənəvi sferada ölməzlik qazandırmasıdır. Məhz Ulu Öndər 1 oktyabr 2003-cü il tarixli xalqa müraciətində 1988-1993-cü illərdə baş verən hadisələrə qısa nəzər salmaqla qeyd edirdi ki, ölkə vətəndaşları silahlı qarşıdurmaya təhrik edilsə də, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə səylər göstərilsə də, biz qarşısını aldıq: *"Lakin xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik".* Ömrünün 60 ilini xalqa xidmətdə keçdiyini, bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll etdiyini qeyd etdikdən sonra deyirdi: *"Lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək".*

> ***“Dövlətimizin başçısı cənab İlham Əliyev ölkədaxili, geosiyasi və qlobal müstəvidə mövcud trendləri aydın gördüyündən ölkənin misli görünməmiş iqtisadi yüksəlişinə, firavan gələcəyinə və tərəqqisinə nail oldu. Müəyyənləşdirdiyi yol xəritəsində güclü iqtisadi potensialın formalaşdırılması, müasir cəmiyyət quruculuğu, beynəlxalq aləmlə bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsi və son hədəf kimi ərazi bütövlüyü və suverenliyinin tam bərpası nəzərdə tutulurdu.”***

Ulu Öndərin bu inamının əsasında iki fundamental zəmin dayanırdı. Onlardan biri möhkəm təməlini-əsasını qoyduğu, sıfırdan qurduğu müstəqil dövlət idi. Ümummilli Lider bu fikri belə əsaslandırmışdı: *"Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar".* İnamın ikinci, ən əsas faktoru isə özünün siyasi varisi - *"O yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir"* - dediyi dövlət başçımızdır.

Ulu öndər Heydər Əliyevin xeyir-duasının yaratdığı bu inamlar müasir və müstəqil Azərbaycanın gələcək möhtəşəm uğurlarının təməli olmaqla əfsanələr reallığa çevrildi, ilk gündən "Heydər Əliyev siyasətini davam etdirəcəyəm", - deyən Prezident İlham Əliyev ölkəmizin zəngin və qüdrətli dövlətə çevrilməsi üçün bütün sahələrdə genişmiqyaslı işlərin həyata keçiriləcəyini bildirdi. Həmin dövrdən ötən 17 il ərzində Azərbaycan bütün sahələrdə güc toplamağa başladı, iqtisadi müstəqillik təmin edildi, nadir inkişaf modelini yaratmaqla beynəlxalq maliyyə qurumlarından və digər ölkələrdən asılı olmayan dövlət oldu. İqtisadi müstəqillik və yüksəliş nəticəsində milli ordunun arsenalının müasir silah və texnika ilə təminatı gücləndirildi, müdafiə sənayesi modernləşdirilməklə hərbçilərin bilik və bacarıqları artırıldı. Bir sözlə, qarşıya qoyulan bütün vəzifələri yerinə yetirmək gücündə, qüdrətində olan Silahlı Qüvvələr yaradıldı. Yetişən, böyüyən gənclər isə Vətəni qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını, əzmkarlıqlarını və işğalla barışmayaraq mübariz olduqlarını dəfələrlə ifadə etdilər.

## Qızıl dövr

Çoxşaxəli və prinsipial xarici siyasət, beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə fəal iş, regional, qlobal enerji-kommunikasiya layihələrinin reallaşdırılması ölkəmizin nüfuzunu artırdı. Bütün bu amillər, yaradılmış möhkəm təməl dövlətimizi strateji hədəflərə doğru inamla və uğurla apardı. Dövlətimizin başçısı cənab İlham Əliyev ölkədaxili, geosiyasi və qlobal müstəvidə mövcud trendləri aydın gördüyündən ölkənin misli görünməmiş iqtisadi yüksəlişinə, firavan gələcəyinə və tərəqqisinə nail oldu. Müəyyənləşdirdiyi yol xəritəsində güclü iqtisadi potensialın formalaşdırılması, müasir cəmiyyət quruculuğu, beynəlxalq aləmlə bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsi və son hədəf kimi ərazi bütövlüyü və suverenliyinin tam bərpası nəzərdə tutulurdu. Son 5 il isə çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşdü, dəfələrlə bölünmüş, məhrumiyyətlərə, işgəncələrə məruz qalmış, lakin milli qürurunu, ənənələrini qoruyub saxlamış xalqımızın həyatında silsilə qələbələr illəri oldu. Bu qələbələrin qazanılmasında Prezident İlham Əliyevin siyasi məharəti, parlaq liderliyi, qətiyyəti və prinsipiallığı, üstün mənəvi keyfiyyətləri, rasional düşüncəsi, yüksək intellekti, təbii-genetik intuisiya bacarıqları mühüm rol oynayır. Özünün kommunikasiya bacarığı sayəsində dövlətin, cəmiyyətin maraqlarını əsas tutaraq sadə vətəndaşla yanaşı, dünyanın nüfuzlu şəxsiyyətlərinin də hörmət və rəğbətini qazanmaqla həm ölkəmizdə, həm də beynəlxalq arenada yüksək nüfuz sahibi olmuşdur. O, təkcə torpağımızı deyil, həm də neçə yüzillik tariximizi işğaldan azad etdi. Azərbaycanın ən böyük problemini, dünyanın isə ən çətin və mürəkkəb münaqişələrindən birini həll edərək Müzəffər Ali Baş Komandan, yenilməz sərkərdə, Qalib Prezident adını qazandı, xalqımızın mədəni-mənəvi bütövlüyünü ən ali mərtəbəyə yüksəldərək Qalib xalq obrazı yaratdı, tarixin əsas qəhrəmanına çevirdi.

Bütün bunlar 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlarına cavab olaraq, əks-hücum, sonradan "Dəmir Yumruq" adı alan əməliyyatının Vətən müharibəsinə çevrilməsi ilə reallaşdı. Müharibə ilk baxışda dağıdıcı rol oynasa da, yenə də hər hansı xalqın tarixində, inkişaf yolunda fasilələr yaratsa da, bəşər tarixində ən çox nəzərəçarpan müharibələr olur. Və tarixi salnamələrə diqqət edəndə elə təsəvvür yaranır ki, tarix ancaq müharibələr tarixindən ibarətdir. Bir çox tarixçilər və filosoflar isə bəzən müharibələri cəmiyyətin hərəkətverici qüvvəsi kimi izah edirlər.

Elm və texnologiyaların, xüsusilə hərbi texnikanın inkişafını da bəzi hallarda müharibələrlə əlaqələndirirlər. Bu fikirlər konkret hallarda doğru olsa da (məsələn: İkinci Dünya müharibəsində) ümumi halda özünü doğrultmur. Müharibələrsiz dövrlərdə də fundamental elmlər, texnologiyalar inkişaf edib və qeyri-bərabər inkişaf ölkələrarası münasibətlərdə həmişə müəyyən gerginlik yaradıb. Buna görə də ölkələrarası münasibətdə sülh vəziyyəti mütləq yox, nisbi anlayışdır. Artıq neçə illərdir ki, etnik zəmində yaranmış, ərazilərimizin işğalı ilə nəticələnmiş, ən mürəkkəb münaqişələrdən olan problemdəki "nə müharibə, nə sülh vəziyyəti" də çox davam edə bilmədi. Ən mürəkkəb, spesifik, analoqu olmayan münaqişə ona görə deyirik ki, problem olmayan yerdə, maraqlı tərəflərin iştirakı ilə problem yaradılmışdır. Ədalət mövqeyindən yanaşılsaydı, əslində problem də yox idi. Haqsız bir iddianı tərəflərin köməyi ilə beynəlxalq problem səviyyəsinə qaldıraraq dünyada tarixi və ictimai rəyi manipulyasiya edərək işğalı reallaşdırmaq cəhdləri var idi. Münaqişənin ancaq "sülh yolu ilə həllinin varlığı" fikri də buna xidmət edirdi.

## Əsl liderin arxasınca xalq özü gedir

Tarixin müəyyən dövrlərində dövlətin və xalqın gələcəyi ilə bağlı məsuliyyəti öz üzərinə götürərək, vaxtında, düzgün, qətiyyətli addımlar atan, tarixi missiyanı yerinə yetirən dövlət başçıları əsl liderə çevrilirlər. Prezident İlham Əliyev də münaqişənin həllinin "sülh" yolu özünü doğrultmadığını, açıq-aydın hiss etdiyindən beynəlxalq münasibətlərdə formalaşmış stereotipləri sındıraraq əks-hücumla başlanan hərbi əməliyyatı Vətən müharibəsinə çevirdi. Əsl liderin arxasınca insanlar özü getdiyindən xalqımız öz lideri ətrafında sıx birləşərək bütün potensialı ilə tam səfərbər oldu. Liderin ideyaları artıq xalqına yiyələnmişdi. Məşhur bir fikir özünü yenidən təsdiq etdi: Xalqın ideyaya yiyələnməsindən daha çox ideyanın xalqa yiyələnməsi əsas şərtdir. İdeya xalqa yiyələnəndə, yəni ideya xalqı ətrafında cəm edəndə, xalq daha mütəşəkkil və səfərbər olur. Doğrudan da ictimai tərəqqi və bu yöndə xalqın ideyaya yiyələnməsi üçün məqsədyönlü fəaliyyət mütləqdir. İdeyanın real ictimai müstəvidə təzahürü, yəni gerçəkləşməsi üçün isə görülməli işlər ictimai tərəqqini təmin edir.

> ***“XXI əsri xalqının son bir neçə yüzilliklər tarixində Qalibiyyət, Zəfər, Müzəffərlik, Böyük Qayıdış və Quruculuq illərinə çevirən Qalib Prezident İlham Əliyev müasir və müstəqil Azərbaycanın əsl lideridir. Qısa müddətdə, cəmi 44 gündə müharibəni zəfərlə başa çatdıran xalqının lideri müharibənin uzun müddət davam etməsinə yol verməməklə, həm də müharibənin xalqın və ölkənin inkişaf yolunda maneə olmaqla tarixdə kəsilmə-fasilələr yaratmasına, kövrək dövlətçilik ənənələrinin məhv olmasına da imkan vermədi. Onun sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi.”***

Mütərəqqi ideyalar, fikirlər daşıyıcısı, Müzəffər Ali Baş Komandan hərblə başladılan işi quruculuqla davam etdirə bilən əsl liderlərdəndir. Tarixdə belə liderlərin tək-tək olmasını aydın görərik. XXI əsri xalqının son bir neçə yüzilliklər tarixində Qalibiyyət, Zəfər, Müzəffərlik, Böyük Qayıdış və Quruculuq illərinə çevirən Qalib Prezident İlham Əliyev müasir və müstəqil Azərbaycanın əsl lideridir. Qısa müddətdə, cəmi 44 gündə müharibəni zəfərlə başa çatdıran xalqının lideri müharibənin uzun müddət davam etməsinə yol verməməklə, həm də müharibənin xalqın və ölkənin inkişaf yolunda maneə olmaqla tarixdə kəsilmə-fasilələr yaratmasına, kövrək dövlətçilik ənənələrinin məhv olmasına da imkan vermədi. Onun sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla və sürətlə icra edilir.

Azərbaycan əldə etdiyi parlaq Qələbə ilə regionda erməni faşizminə son qoydu. Ölkəmiz təkcə Ermənistanla, dünya erməniliyi yox, həm də Ermənistanın himayədarları ilə müharibə apararaq regionda və dünyada hamının hesablaşdığı yeni reallıqlar yaratdı. Qələbəmizin səviyyəsi haqqında Müzəffər lider İlham Əliyev demişdir: *"Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir".*

Bu gün Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına da xüsusi önəm verən dövlətimizin başçısı demişdir: *"Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur".* Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəldiyindən nə Qələbəmizi, nə də Qərbi Azərbaycan məsələsini həzm edə bilmirlər. Ona görə də ölkəmizə qarşı geniş, çirkin kampaniya aparırlar. Çox gözəl bilirik ki, bu, Qərbdə bəzi uğursuz dövlət başçılarının məqsədi və ənənəvi iş üsuludur.

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, müasir liderimiz İlham Əliyevin inamla davam etdirdiyi inkişaf strategiyası belə qlobal qələbələr qazanmaqla taleyüklü məsələlərin həllinə və planetar səviyyəli tədbirlərin icrasına rəvac verir. Azərbaycanın dünyanın 120 ölkəsinin birləşdiyi Qoşulmama Hərəkatına uğurlu sədrliyi də bu qəbildən olan nailiyyətlərdən biridir.

Cari il noyabr ayının 11-22-də yüksək səviyyədə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməyimiz buna əyani sübutdur. Dünyanın 197 ölkəsindən 80 dövlət və hökumət başçılarının, 76 mindən çox nümayəndənin iştirakı Azərbaycanın qlobal problemlərin həllində hərəkətverici qüvvə olduğunu təsdiq edir.

Dünya ölkələrinin tarixinə diqqət edəndə aydın görünür ki, hər dövlət başçısı lider ola bilmir. Lider olmaq üçün xalqı arxalarınca getməyə məcbur etmək lazım deyil. Əsl liderin arxasınca xalq özü gedir. Onlar öz missiyalarını dərk edir, bütün enerjilərini, qabiliyyətlərini, həyatlarını xalqın milli məqsədlərinin gerçəkləşməsinə sərf edirlər. Ölkəmizin tarixinin qısa parçasında ulu öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan Qalib Prezident İlham Əliyevin liderliyi ilə tarixi ədaləti bərpa edərək möhtəşəm, silsilə qələbələr, beynəlxalq aləmdə böyük nüfuz qazanmaqla firavan gələcəyə doğru Zəfər yolunu inamla davam etdirir.

**Hümbət MUSAYEV.**